*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. ————*

**NÜBUBƏT ADIGÖZƏLOVA**
Gəncə Dövlət Universiteti, dissertant
Adigozelovanububet@gmail.com

# MÜASİR KOQNİTİV DİLÇİLİKDƏ KONSEPTUALLAŞMA PROBLEMİ

**XÜLASƏ**

Müasir dilçilikdə dilə antroposentrik və kulturoloji istiqamətdən yanaşma xüsusi əhəmiyyətə malikdir. Bunun əsas səbəbi dil ilə mədəniyyətin qarşılıqlı əlaqə və təsirin aşkara çıxarmaq, dildaşıyıcı etnosun dünyagörüşü və təfəkkürü ilə vəhdətini izah etməkdir. Linqvistikada məna, anlayış, konsept və anlam problemləri mübahisəli məsələlərdən hesab olunur. Koqnitiv dilçiliyin əsas termini "konsept"dir. Konsept təfəkkürün ifadə vasitəsi olan dili, təfəkkür və dərkolunma qanunları, informasiyanın qorunması və insan beynində funksionallaşması qaydalarını özündə ehtiva edir.

Avropa alimləri L.Blumfild, T.A.Van Deyk, V.Uorf, E.Benvenist koqnitiv dilçiliyin inkişafında mühüm rol oynadılar. Rus alimləri V.İ.Karasik, L.O.Çerneyko, A.V.Rudakova, İ.A.Sternin qeyd edirdilər ki, şüür beynin statik aspekti, təfəkkür isə dinamik aspekti ilə bağlıdır. Məqalədə Azərbaycan dilçi alimləri N.Ç.Vəliyevanın, M.B.Əsgərovun, G.Ç.Maxmudovanın müasir koqnitiv dilçilikdə konseptuallaşdırma probleminə dair müxtəlif elmi əsərləri tədqiq olunur.

**Açar sözlər:** *koqnitiv dilçilik, söz, məna, dəyər, anlayış, konsept, anlam.*

*Bəllidir ki, müasir dünya dilçiliyinin konsepsiyalarının paradiqmasında koqnitiv linqvistika öz dəyərli yerini tutub. Xüsusilə koqnitiv linqvistikanın yaranması və müasir mərhələdə olan çoxsahəli inkişafı dilçiliyin xarakterik cəhətini təşkil edir. Koqnitiv linqvistikada biz dil və təfəkkür münasibətlərinin öyrənilməsinin yeni dövrünü müşahidə edirik. Nəzəri dilçilik üçün bu problem kifayət qədər xarakterikdir. Bu gün Azərbaycanda koqnitiv tədqiqatlar aparılır və aktuallıq kəsb edir ona görə ki, dil və təfəkkür, dilin əsas funksiyaları, dildə insanın rolu və insan üçün dilin rolu kimi problemlərin aşılanmasına həsr edilir* [5, s.9].

Psixologiyada təfəkkürün aşağıdakı növləri fərqləndirilir: təfəkkürün ontogenetik inkişafının ardıcıl mərhələləri olan vizual-effektiv, vizual-obrazlı, şifahi-məntiqi. "Konsept" anlayışı fərqli adlarla antik mədəniyyət dövründə də, orta əsrlərdə də mövcud olmuşdur. O dövrlərə bəşər dilinin əsasını təşkil edən universal linqvistik kateqoriyalar barədə fikir söylənilirdi. XVI əsrdə Avropa alimi F.Bekon təfəkkürün hissiyyat əsaslı olduğunu qeyd edirdi. F.Bekondan sonra R.Dekart da qeyd edirdi ki, dilin öyrənilməsi hər bir insanın təfəkkürünə məxsus olan sadə ideyaların nəzərə alınmasından ibarətdir. R.Dekartın bu fikrini digər Avropa alimi V.Leybnits də təsdiqləyirdi. Onun fikrincə, sözün mənasını ümumi ideya və anlayışlar təsdir edir. Avropa alimləri konsept anlayışını dil universalisi

adlandırırdılar. Qrammatik səviyyədə dil universaliləri barədə ilk dəfə "Por-Riyal" qrammatikasının müəllifləri Arno və Lanslo yazmışlar.

Bu mövzudan danışarkən strukturalizm cərəyanını və onun nümayəndələri L.Yelmslev və R.Yakobsonu xüsusi qeyd etmək lazımdır. Dildə koqnitiv münasibətin formalaşmasında Ferdinand de Sössür, Ç.F.Xokket, L.V.Vitqenşteyn, Ş.Balli və digər alimlərin adlarını çəkmək məqsədəuyğundur. Koqnitiv linqvistika müasir dünya dilçiliyində konsepsiya paradiqmində öz yerini tutmuşdur. Əsası Vilhelm fon Humboldt tərəfindən qoyulan koqnitiv linqvistika dillərin ümumi inkişaf qanunlarını əks etdirirdi. Xalqların mədəni həyatının inkişaf aspektlərini kompleks araşdırmağa imkan yaradan deskriptivizm əsasən antropoloji tədqiqatlara əsaslanırdı. Bu dilçilik istiqamətinin görkəmli tədqiqatçısı F.Boas idi.

Təfəkkür beynin fəaliyyətidir və onun nəticəsində obrazlar və konseptlər yaranır. V.Z.Demyankov hesab edir ki, bütün dillərdə konsept natamamlığı və ibtidailiyi özündə saxlayır. O yazır ki, "*Hər bir elementar nitq və idrak aktında statika (sinxroniya) və dinamika elementləri - diaxroniya, sistemin hərəkətliliyi, onun dəyişməsi, konkret mühitdə işlənmiş obyektə uyğunlaşma mövcuddur. Biz köhnə mətnləri yalnız günümüzün rekonstruktiv şərhi istisna edən məntiqinə əsaslanaraq şərh etməyə çalışarkən statikanın mütləqləşməsi ilə qarşılaşırıq. Dinamikanın mütləqləşdirilməsi tənqidi olmayan qavrayışla, digər insanların fikirlərinin təklifi ilə, qavrayış anının dərhallığı və unikallığı üçün düzəlişlər olmadan həmsərhəddir: bu, tərcüməçinin anonimliyidir. Normal şərh bu iki hədd arasında bir yerdədir*" [11, s.31]. Koqnitiv elm – koqnitiv psixologiya, koqnitiv dilçilik, koqnisiyanın fəlsəfi nəzəriyyəsi, dilin məntiqi təhlili, süni intellekt nəzəriyyəsi, neyrofiziologiya elmlərinin tədqiqat obyektidir. Müasir dövrümüzdə koqnitiv antropologiya, koqnitiv sosiologiya, koqnitiv ədəbiyyatşünaslıq kimi elm sahələri meydana gəlmişdir.

Müasir Azərbaycan dilçilikdə son onilliklərdə milli konseptosferanın tədqiqi xüsusilə aktual olmuşdur. Lakin Azərbaycan dilçilər arasında konseptin dərk edilməsində birlik yoxdur ki, bu da nəzərdən keçirilən hadisənin mücərrəd xarakterindən irəli gəlir. Söz və ya forma yalnız dərk olunmuş gerçəklik elementi ilə bağlı yarana bilər. M.B.Əsgərova görə: "*Əgər gerçəklik elementi əvvəlcədən dərk olunmamışdırsa, ya da adının verilməsi ilə eyni vaxtda dərk edilmirsə, onunla bağlı söz yarana bilməz, eləcə də yaddaşda olmayan və ya yaddaşdan silinmiş gerçəklik elementi ilə bağlı olan söz dildə qala bilməz*" [2, s.96]. Q.Ç.Mahmudova yazır: "*Söz yalnız dərk olunmuş gerçəklik elementi ilə bağlı yarana bilər. Gerçəkliyə verilən ad yeni zamanda dil konstruksiyasıdır. Koqnitiv proseslər sintaktik və leksik-semantik üsulla sözyaratmada daha aktiv mövqeyə malikdir*" [3, s.15].

Koqnitiv dilçilikdə müxtəlif növ konseptlərin öyrənilməsinə xüsusi fikir verilir. Məlum olduğu kimi, Avropa fəlsəfəsində "konsept" termini hələ orta əsrlərdə geniş istifadə edilmişdir. Fəlsəfədə konseptlər konkret konsepsiyanın və ya təlimin məzmununu xarakterizə edən konseptual sxem təşkil edir. Məsələ bundadır ki, konseptosfera çərçivəsində hər bir konsept onun məzmununu açan aydın tərifə uyğun gəlir. Beləliklə, konseptlərin ardıcıllığı və məntiqi uyğunluğu yaradılır ki, bu da

bütövlükdə konsepsiyanın və nəzəriyyənin başa düşülməsini və daxili ardıcıllığını təmin edir. Adətən, konsept – anlayışın məzmunu, "onun ifadəsinin konkret linqvistik formasından abstraksiya şəklində onun semantik məzmunu" kimi başa düşülür [16]. Fəlsəfə və məntiqdə məfhumun məzmunu onun həcmi ilə ziddiyyət təşkil edir. V.F.Asmus qeyd edir ki, "*hər bir anlayışda onun məzmunu, yəni onun əsas xüsusiyyətləri haqqında düşüncə ilə yanaşı, anlayışın əhatə etdiyi həmin obyektlərin məcmusu haqqında düşüncəni də fərqləndirmək lazımdır. Müəyyən bir anlayışda təsəvvür edilən obyektlərin məcmusuna bu anlayışın həcmi deyilir*" [8, s.35]. Anlayışın məzmunu və əhatə dairəsi ilə bağlı bu məntiqi fikirlər ənənəvi olaraq dilçilikdə öz əksini tapır. Beləliklə, "*dilçiliyin metadilinə "intensional" və "ekstensional" kimi terminlər daxildir. Birinci termin sözün məzmununu, ikincisi isə sözün ayrı-ayrı obyektlərlə əlaqəsini bildirir*" [8, s.44].

"Konsept" termini psixologiyada insanın konkret emosiya və hisslərini, şüurunu müəyyənləşdirmək üçün istifadə olunur. Psixolinqvistika mövqeyində konsept milli-mədəni şüurda mövcud olan, semantik sahənin invariant mənası kimi dil şəxsiyyəti tərəfindən qavranan bütöv bir məlumat kimi səciyyələndirilir.

Müasir dilçilikdə "konsept" termini başqa məna daşıyır. Ehtimal olunur ki, bu gün geniş şəkildə istifadə olunan "konsept"in düzgün başa düşülməsi rus filosofu S.A.Askoldovun əsərlərinə gedib çıxır. 1928-ci ildə L.V.Şerbanın redaktorluğu ilə nəşr olunan "Русская речь" - "Rus nitqi" toplusunda S.A. Askoldovun "Konsept və söz" adlı məqaləsi dərc edilmişdir. S.A. Askoldov qeyd edir ki, "*konseptlərin təbiəti alimləri çoxdan maraqlandırır, lakin nədənsə bu sual açıq qalır*" [7, s.28]. Anlayış konseptin məzmununu ifadə etməsi ilə bağlı biliklərimizlə müəyyən uyğunsuzluq qeyd edilə bilər. Anlayışın məzmunu və ya konsept vahid məntiqi sinifdə birləşmiş əşyaların mühüm əlamətlərindən ibarətdir. Məhz bu səbəbdən anlayış məntiqi kateqoriyadır. Y.S.Stepanov hesab edir ki, "*Konsept insanın mental aləmində mədəniyyətin əsas elementidir*" [14, s.41]. N.F.Alefirenko konseptin tərifini fərqli şəkildə verir: "*Konsept həqiqətən kifayət qədər geniş struktur diapazonunun: üfüqi ox boyunca – ümumiləşdirilmiş vizual təsvirlərdən məntiqi anlayışlara qədər; şaquli ox boyunca - onun dərin semantik qatlarının müxtəlif dərəcədə izahı ilə müəyyən mənalı düşüncə şəklidir*" [6, s.228]. N.N.Boldırev isə yazır ki, "*Konseptlər o ideal, mücərrəd vahidlərdir ki, onların mənaları insanın düşünmə prosesində fəaliyyət göstərir. Onlar əldə edilmiş biliyin, təcrübənin məzmununu, bütün insan fəaliyyətinin və onun ətraf aləm haqqında biliklərinin nəticələrini biliyin "kvantları" şəklində müəyyən vahidlər kimi əks etdirir. İnsan konseptlər vasitəsilə düşünür*" [10, s.22-24]. İstənilən konsept sahə nəzəriyyəsi müstəvisində adlanır. Dilçilik ədəbiyyatında sahə məfhumu bəzən kateqoriya və ya sistem ifadələri ilə təqdim olunur. Bu məfhumlar bir tərəfdən məkan sahəsi, zaman sahəsi, rəngbildirmə sahəsi, gözəllik sahəsi və s. kimi təqdim olunursa, digər tərəfdən məkan kateqoriyası, zaman kateqoriyası və s. adlanır. Hər hansı konseptinin leksik-semantik sahəsinə dildə fəlsəfi, psixoloji, kulturoloji və linqvistik amillərin təsiri danılmazdır. "Konsept" termini semantika nəzəriyyəsində əsas yerlərdən birini tutur və buna görə də realilərin koqnitiv xüsusiyyətlərinin

tədqiqatında ona əsaslanmaq daha uyğun hesab oluna bilər.

Dilçilikdə semantik sahə anlayışı ilk dəfə Q.İpsenin əsərlərində təqdim olunmuşdur. Y.Trir qeyd edirdi ki, sahə nəzəriyyəsi eynimənalı sözlərin birliyinə əsaslanır. Y.Trir leksik-semantik sahə nəzəriyyəsini ümümfəlsəfi və ümumlinqvistik kateqoriya kimi hesab etmişdir. İstənilən konseptin leksik-semantik sahəsi dəyərləndirmə faktoruna aid olub insanın davranışını, onun ətraf mühitə və insanlara münasibətini ifadə edir. V.N.Teliya frazeologiyanın semantik, praqmatik və linqvokulturoloji aspektlərinin tədqiqini aparanda konseptin tərifini özünəməxsus şəkildə verib. O yazır: "*Konsept həmişə freymləşmiş bilikdir, bu o deməkdir ki, o, yalnız obyektin əsas xüsusiyyətlərini deyil, müəyyən bir sosiumda mahiyyət bilgisi ilə dolu olan bütün xüsusiyyətləri özündə əks etdirir*" [15, s.96]. "Konsept" anlayışının tərifini bir çox tədqiqatçılar verib. Y.S.Kubryakovanın tərifi bizə görə daha doğrudur. O yazır ki, "*konsept –şüurumuzun zehni və ya psixi resurslarının vahidlərini və insan bilik və təcrübəsini əks etdirən informasiya strukturunu izah etməyə xidmət edən termindir; mental leksikonun, konseptual sistemin və beyin dilinin, insan psixikasında əks olunan dünyanın bütün mənzərəsinin operativ, mənalı yaddaş vahididir*" [12, s.90].

Fərqli vaxtlarda bir sıra tədqiqatçılar konseptin təsnifatını verib. Məsələn, A.P.Babuşkin konseptin aşağıdakı növlərini xüsusi qeyd edir: mental şəkillər – insanların kollektiv milli və ya fərdi şüurunda obrazlar toplusu; konsept-sxemlər – leksik vasitələrlə müəyyən şəkildə müəyyənləşdirilmiş dünyanın qavrayış və idrak mənzərəsini formalaşdırır; konsept-hiperonimlər – konnotasiyadan məhrum olan təriflər; konsept-freymlər – yaddaşda saxlanılan assosiasiyalar, səhnələrin sxemi; konsept-insayt – müəyyən münasibətlərin və bütövlükdə vəziyyətlərin strukturunun qavranılması, bir sözdə mövcud olan müəyyən obyektin daxili quruluşu və ya funksional məqsədi haqqında məlumat, qəfil anlama; konsept-ssenarilər – (script) скрипт – hadisələrin sxemi, stereotipik epizodlar haqqında məlumatların təqdimatı, sözlə təsəvvür edilən hadisələrin ardıcıllığı və əlaqəsi, onların dinamikası; kaleydoskopik konseptlər – metaforizasiyanın nəticəsidir, onların daimi sabit assosiasiyaları yoxdur, çünki onlar ya zehni şəkillər şəklində, ya da freymlər, sxemlər və ya ssenari şəklində yerləşdirilir [9, s.43-67].

Z.D.Popova, İ.A.Sternin isə konseptin fərqli təsnifatını verir. Onlar konseptin növlərini belə ayırır: konsept – təsəvvür (ümumiləşdirilmiş obraz, obyektin və hadisənin ümumiləşdirilmiş sensor-vizual təsvir edən anlayış); konsept – sxem (hansısa ümumiləşdirilmiş məkan-qrafik və ya kontur diaqramı ilə təmsil olunan anlayış); konsept – anlayış (obyektin və ya hadisənin ümumi, əsas xüsusiyyətlərini, onların rasional təzahürünün və dərk edilməsinin nəticəsini əks etdirən anlayış); konsept – freym (çoxkomponentli konsept, həcmli təsvir, obyekt və ya hadisə haqqında müəyyən standart biliklər toplusu); konsept – ssenari (skript – hərəkət və inkişaf əlamətləri olan stereotipik bir neçə epizodun zaman ardıcıllığı); konsept – qeştalt (şüurda ayrı-ayrı hadisələrin müxtəlifliyini təşkil edən mürəkkəb, vahid funksional təfəkkür strukturu) [13, s.43-67].

Məlum olduğu kimi, freym milli mentalitet, dünyanın mənzərəsi və ona xas olan konseptual sfera, stereotiplər və standartlar sistemi ilə bilavasitə bağlıdır. Freymin öz məntiqi var. Buna səbəbə görə də, təkcə universal ekstralinqvistik standartlara bilik və şüuraltı orientasiya kifayət deyil. Əhəmiyyətli səviyyədə freym üçün sahə xarakteri vacibdir. Tarixi və ya mədəni orijinallığına malik olan, müəyyən bir sahədə təqdim olunan obraz – konseptdir, çünki o fenomenin təsviridir [17]. Bizə görə, freym konseptlə uyğun gəlir, lakin onların arasında bərabər işarəsini qoymaq düz deyil.

Qeyd edək ki, müasir elmi tədqiqat işlərində “anlayış”, “konsept”, “freym” terminlərinin diferensiallaşdırılması məsələsi çox gündəmə gətirilir. Linqvistik-koqnitiv diskurs çox vaxt bu terminləri qarışdırır. “Anlayış” və “konsept” terminləri eyni məntiqi və intellektual kateqoriyanı ifadə etmək üçün istifadə olunur. Ona görə də bəzi əsərlərdə “konsept”in “anlayış” terminindən heç bir fərqi yox idi. Konsept etno-linqvistik kollektivin konkret reallıq hadisəsi haqqında təsəvvürlərinə uyğun gələn və bir xalqın təsəvvürlərini təşkil edən psixi vahid kimi başa düşülməlidir. Konsept xalqın dilində mövcud olan və onun psixoloji görünüşünü müəyyən edən dünya mənzərəsinin mühüm fraqmentini təşkil edir. Konsept dil daşıyıcılarının kollektiv təfəkkürünü səciyyələndirdiyindən dil vahidlərinin strukturunda üzə çıxır. Bu proses verbalizasiya adlanır.

Freym konseptdən onunla fərqlənir ki, o, sözügedən vəziyyətin bütün aspektlərini ehtiva edir. Freymin bu xüsusiyyəti onu konseptdən fərqləndirir. Freym şifahi şəkildə ifadə edilə bilənləri deyil, həm də konsitusiyanın bir çox təfərrüatlarını ehtiva edir. Freymin linqvistik tədqiqi onun komponentlərini fiksasiya edir və eyni zamanda etnik və ya milli təfəkkür kontekstində onların linqvistik mənalarını izah edir. Mənalar dil sisteminə aiddir. Mənalar – bizi əhatə edən ətraf aləmin müəyyən cəhətlərinin və fraqmentlərinin insan təfəkküründəki ifadə formalarıdır. Mənanın formalaşma prosesində qarşılıqlı əlaqəsi olan üç element öz əksini tapır: dərk edən subyekt (insan); dərk olunan obyekt (real aləm) və dil işarəsi. Mənalandırma funksiyası dilin digər funksiyaları – işarə, qnoseoloji və kommunikativ ilə sıx əlaqədardır, bilavasitə dil və təfəkkür məsələlərinin öyrənilməsinə xidmət edir. Dil sistemində ətraf aləmdəki obyekt və predmetlərə istinad metafora və ya sabit müqayisə formasında təzahür edir.

Leksik vahidin dildə funksionallaşması prosesində sözün əşyaya və anlayışa münasibəti uyğun gəlməyə bilər. Konseptlərlə müqayisədə anlayışlar daha sadə struktura malikdir. Konsept dil sistemində öz-özlüyündə mövcud olur və xüsusi şərhə ehtiyac olmur. *Koqnitiv funksiya sözlərin məzmununda anlayışların müxtəlif aspektlərinin qarşılıqlı əlaqəsini təşkil edir. Koqnitiv yanaşma ilə sözün leksik mənasında linqvistik vahidlərin fəaliyyətini əvvəlcədən təyin edən keyfiyyətcə yeni komponentləri müəyyən etmək mümkündür. Bu yanaşma lüğət vahidlərində qeydə alınan bilikləri nəzərə almaqla dilin leksik sisteminin funksional-semantik təsnifatını verməyə imkan yaradır* [3, s.16].

Dil və cəmiyyət bir-biri ilə sıx əlaqəsi olan məfhumlardır. Cəmiyyətin dil daşıyıcıları və onların dili bu iki analyış arasındakı qarşılıqlı əlaqəni ifadə edir. Dil və mədəniyyətin araşdırılmasında dəyərin tədqiqi mühüm yer tutur. Hər hansı bir məfhumu ifadə edən anlayışı səciyyənləndirmək üçün çoxsaylı əşya və hadisələri dəyərləndirmək lazımdır. Dildə dəyər nəzəriyyəsi ilk növbədə insan amili ilə əlaqədardır. İnsanlar arasındakı ünsiyyət prosesi və onunla bağlı olan deyər nəzəriyyəsi "işarə" və "məna" kimi kateqoriyaların araşdırılmasında xüsusi əhəmiyyətə malikdir. "Dəyər" - obyekt və ya hadisənin əhəmiyyətinin tanınmasını bildirən xüsusiyyətidir. "Dəyər" anlayışının növləri mövcuddur: "maddi dəyərlər", "mənəvi dəyərlər", "əbədi dəyərlər". Fəlsəfədə "dəyər" müəyyən predmet və hadisələrin şəxsi, sosial-mədəni əhəmiyyətinin göstəricisidir. "Anlayış" – müəyyən leksik vahidin semiotik strukturunun əsas semlərinin vəhdəti olub, mənanın sabit və adətən dominant hissəsini özündə ehtiva edir. "Konsept" – ənənəvi ifadəyə malik olan sabit linqvistik və ya müəllif ideyasıdır. Adi həyatda konsepti – yaradıcı məna ehtiva edən innovativ ideya kimi başa düşülür. "Anlam" – bir sözün və ya kəlmənin mənasıdır. O şüura xas olan gerçəkliyin mənimsənilməsinin və predmetin mənaca məzmununun açılmasını və yenidən canlandırılmasının ifadə edən formasıdır.

Koqnitiv yanaşma çərçivəsində mövcud konseptlər və ya konseptual strukturlar əsasında insanın konseptual sistemində yeni dil işarəsinin, bilik strukturunun təzahürünü təmin edən koqnitiv proses konseptual derivasiya adlanır. Bu cür yanaşma nisbətən çətinliyi ilə diqqəti cəlb edir və bəzi müəlliflərin da haqlı qeyd etdikləri kimi, dil işarəsində 1) gerçək dünyanın kateqoriyaları; 2) təfəkkür kateqoriyaları; 3) praqmatik amillər; 4) sistemdə dil işarələri arasında münasibətlər qarşılıqlı münasibətdə olurlar. Belə halda terminin informasiya – anlayış statusundan bəhs edilir.

Məna, dəyər, anlayış, konsept və anlam qarşılıqlı əlaqədədir. Konsept mental kateqoriya olub nitqdə dilin məna kateqoriyası ilə aktuallaşır. Konsepti psixolinqvistik hadisə (A.A.Zalevskaya, 2001), abstrakt elmi anlayış (A.Solomonik, 1995), mədəniyyətin əsas vahidi (Y.S.Stepanov, 1997), linqvomədəni hadisə (Q.Q.Slışkin, 2000; V.İ.Karasik, 2001; V.A.Maslova, 2007; S.Q.Vorkaçev, 2007) kimi izah edənlər tədqiqatçılar da var. Konseptin ən çox rast gəlinən nöqteyi-nəzər onun linqvistik-koqnitiv hadisə (Y.S.Kubryakova, 1996) kimi tərifidir. Beləliklə "məna", "dəyər", "anlayış", "konsept" və "anlam" məsələlərinin araşdırılması gündəmdə qalır.

Beləliklə, bu nəticəyə gəlirik ki, leksik vahidlər xalqın tarixini, coğrafiyasını, dünyagörüşünü, həyat tərzini, milli-mədəni xüsusiyyətlərini özündə ehtiva edir. İstənilən canlı dilin lüğət tərkibi daima dəyişikliklərə məruz qalır, yəni söz ehtiyatı dinamik quruluşa malikdir. Cəmiyyətimizdə fərqli sahələrdə baş verən hadisələrlə bağlı, yəni tarixi, ictimai-siyasi reallıqlar və faktlar, elm və texnikanın inkişafı və s. yeni sözlərin və terminlərin yaranmasının zəruriliyini təşkil edir.

Nitqimizə daxil olan yeni anlayışlar, realilər onların qarşılıqlarının sözlərlə ifadəsinə tələbatı artırır. Nitq və təfəkkür ilə bağlı sözlər, yeni anlayışlar dilin fonetik,

morfoloji, leksik-semantik, sintaktik və kalka yolu ilə yaranır və gündəlik ünsiyyətdə istifadə edilir. Fərqli konstruksiyalardan istifadə edərək dildə yeni sözlər yaransa da, əksər hallarda dilin öz daxili imkanları hesabına yeni leksik vahidlər əmələ gəlir.

Müasir dildə söz yaradıcılığının üç üsulu mövcuddur. Onlar sözyaratma, sözalma və konversiya hadisəsidir. Sözyaratma prosesinin məhsuldar və qeyri-məhsuldar növləri var. Dilin daxili inkişafı nəticəsində meydana çıxan sözyaratma leksik-semantik üsul vasitəsilə yaranır. Yeni söz və terminləri yaratmaq üçün kalka, reduplikasiya, morfoloji və sintaktik üsullar istifadə edilir. Dilin lüğət tərkibinin zənginləşməsində alınma sözlər ən məhsuldar proseslərdən biri sayılır. Müasir Azərbaycan dilinin leksik tərkibində sözyaratmada milliləşdirmə, yerləşdirmə, fəallaşma prosesləri də müşahidə olunur.

**ƏDƏBİYYAT**

1. Boas, F. Introduction. Handbook of American Indian Languages. Cambridge: Cambridge University Press, 2013, 570 p. (First edition: 1911-1922. – 83 p.)
2. Əsgərov, M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi, AMEA Nəsimi adına Dilçilik İnstitutu, – Bakı: Elm və Təhsil, – 2015. – 192 s.
3. Mahmudova, Q.Ç. Müasir türk dillərində söz yaradıcılığı. Elmlər dok.e.d.a.ü.t. ed. dis-nın avtoreferatı, – Bakı, – 2023. – 53 s.
4. Sössür, de F. Ümumi Dilçilik kursu. – Bakı, – BDU nəşr, – 2003. – 407 s.
5. Vəliyeva, N.Ç. Təhsilin dili və dilin təhsili mədəniyyətlərarası dialoq ya qlobal kommunikasiya şəraitində. – Germany, – Saarbrükken: Lambert Academic Publishing (LAP), – 2018. – 264 p.
6. Алефиренко, Н.Ф. Поэтическая энергия слова. Синергетика языка, сознания и культуры. – Москва, Academia, – 2002, – 394 с.
7. Аскольдов, С.А. Концепт и слово. – Ленинград: Русская речь, Новая серия, вып.2, – 1928. – с.28-44.
8. Асмус, В.Ф. Логика. – Москва: Эдиториал УРСС, – 2001. – 392 с.
9. Бабушкин, А.П. Типы концептов в лексико-фразеологической семантике языка. – Воронеж: Изд-во Воронежского Гос.Унив-та, – 1996. – 104 с.
10. Болдырев, Н.Н. Когнитивная семантика: Курс лекций по английской филологии. – Тамбов: Изд. ТГУ, – 2002. – 123 с.
11. Демьянков, В.З. Когнитивная лингвистика как разновидность интегрирующего подхода // Вопросы языкознания. №4. – М.: МГУ, – 1994. – с.17-33.
12. Кубрякова, Е.С., Демьянков, В.З., Панкрац, Ю.Г., Лузина, Л.Г. Краткий словарь когнитивных терминов. – Москва: Изд. МГУ им. М.В.Ломоносова, – 1996. – 245 с.
13. Попова, З.Д., Стернин, И.А. Когнитивная лингвистика. – Москва: АСТ: Восток – Запад, – 2007. – 314 с.
14. Степанов, Ю.С. Концепт. // Константы. Словарь русской культуры, Опыт исследования, – Москва: Школа "Языки русской культуры", – 1997. – с.40-76.
15. Телия, В.Н. Русская фразеология: Семантический, прагматический и

лингвокультурологический аспекты. – М.: Языки русской культуры, – 1996. – 288 с.
16. https://gtmarket.ru/concepts
17.https://cyberleninka.ru/article/n/ritorika-vs-stilistika-semioticheskiy-i-institutsionalnyy-aspekty/viewer

**Nububat Adigozalova**

## THE PROBLEM OF CONCEPTUALIZATION IN MODERN COGNITIVE LINGUISTICS

### RESUME

In modern linguistics, the anthropocentric and cultural approach to language is of particular importance. The main reason for this is to identify the interaction and mutual influence of language and culture, to explain unity with the worldview and thinking of a certain ethnic group. In linguistics, the problems of meaning, notion, concept and sense are considered controversial issues. The main term of cognitive linguistics is “concept”. This concept includes language, which is a means of expressing thinking, laws of thinking and understanding, rules for protecting information and its functioning in the human brain.

An important role in the development of cognitive linguistics was played by European scientists L.Bloomfield, T.A. Van Dijk, B.L.Whorf, E.Benveniste. Russian scientists V.I.Karasik, L.O. Cherneyko, A.V. Rudakova, I.A. Sternin noted that consciousness is associated with the static side of the brain, and thinking - with the dynamic. The given article studies various scientific works of Azerbaijani linguists N.Ch.Veliyeva, M.B.Askerov, G.Ch.Makhmudova on the problem of conceptualization in modern cognitive linguistics.
**Key words:** *cognitive linguistics, word, meaning, value, notion, concept, sense / content.*

**Нубубат Адыгезалова**

## ПРОБЛЕМА КОНЦЕПТУАЛИЗАЦИИ В СОВРЕМЕННОЙ КОГНИТИВНОЙ ЛИНГВИСТИКЕ

### РЕЗЮМЕ

В современном языкознании особое значение приобретает антропоцентрический и культурологический подход к языку. Основная причина этого – выявить взаимодействие и взаимовлияние языка и культуры, объяснить единство с мировоззрением и мышлением определенного этноса. В лингвистике проблемы значения, понятия, концепта и смысла считаются спорными вопросами. Основным термином когнитивной лингвистики является «концепт». В это понятие входит язык, являющийся средством выражения мышления, законы мышления и понимания, правила защиты информации и ее функционирования в мозгу человека.

Важную роль в развитии когнитивной лингвистики сыграли европейские учёные Л.Блумфилд, Т.А. Ван Дейк, В.Уорф, Э.Бенвенист. Российские учёные В.И.Карасик, Л.О. Чернейко, А.В.Рудакова, И.А.Стернин отмечали, что сознание связано со статической стороной мозга, а мышление - с динамической. В статье изучаются различные научные труды азербайджанских лингвистов Н.Ч.Велиевой, М.Б.Аскерова, Г.Ч.Махмудовой по проблеме концептуализации в современной когнитивной лингвистике.

**Ключевые слова:** *когнитивная лингвистика, слово, значение, ценность, понятие, концепт, смысл.*

**Rəyçi: filologiya elmləri doktoru, professor Nigar Vəliyeva**